# "Dəmir yumruğ"un qətiyyətli və sarsıdıcı cavabı



**Düşmən toparlanmaq istəyir.**

**Düşmən özünə gələrək qüvvətlənmək istəyir.**

**Düşmən havadarlarına güvənərək qisas almaq istəyir.**

*Amma yenə unudur:*

● İlham Əliyevin Azərbaycanı 90-cı illərin Azərbaycanı deyil!

● İlham Əliyevin qurduğu möhtəşəm ordu 90-cı illərdəki özünümüdafiə batalyonlarına bənzəmir!

● Azərbaycan Ordusunun indiki silahları 90-cı illərin köhnə-kürüş silahlarından deyil!

● Azərbaycan gəncləri də yeni təfəkkürlü, yüksək hərbi hazırlıqlı, yalın əllə Şuşanı azad edənlərdir!

**Belə qəhrəmanların qarşısında dağ da dayanmaz, nəinki dılğır, onun-bunun arxasında gizlənərək güllə atan ermənilər...**

*Bəli, düşmən atəşkəsi pozdu!*

*Bəli, düşmən sülh müqaviləsini imzalamaq istəmir!*

*Bəli, düşmən Rusiyanın iştirakı ilə qol çəkdiyi üçtərəfli Bəyanatı saya salmır!*

*Nəticəsi nədir?!*

● Torpaqlarımızdan it kimi qovulub!

● Ordusu məhv edilərək özü diz çökdürülüb!

● Yaxınlarda keçirilən "Qisas" əməliyyatı zamanı 44 günlük Vətən müharibəsindəki kimi başı yenidən "dəmir yumruq"la əzildi!

**Verilən dərslər, görünür, azlıq edir!**

**Sentyabrın 12-dən 13-nə keçən gecə yenidən ürəklənərək atəşkəsi pozdu!**

Bu dəfə də "dəmir yumruğ"u başı üzərində gördü:

*Təkcə başı əzilmədi, həm də Azərbaycan Ordusundan növbəti dəfə qətiyyətli və sarsıdıcı zərbə aldı:*

● Budəfəki zəruri hərbi əməliyyat da yüksək peşəkarlıqla həyata keçirildi, əsas hədəflərə nail olundu;

● Ermənistanın Azərbaycanla sərhəddə - Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu bütün hərbi təyinatlı obyektlər darmadağın edildi;

● Azərbaycan Ordusunun ərazidəki bütün əsas nəqliyyat - kommunikasiya nöqtələrinə nəzarəti təmin olundu;

● Ölkəmizin sərhədlərində yaradılaraq hərbi hissələrimizin mövqeyinə təhdid və təhlükə törədə biləcək bütün strateji nöqtələr nəzarətə götürüldü;

● Azərbaycan Ordusunun mövqelərini hədəfə alan Ermənistanın bütün hərbi nöqtələri şəxsi heyətlə birlikdə məhv edildi;

● "Dəmir yumruğ"un cavab zərbəsi nəticəsində Ermənistanın daha 200-dək hərbçisi cəhənnəmə vasil oldu;

● Düşmənin xeyli sayda hərbi texnikası, yüz milyonlarla dollardan artıq dəyəri olan iki S-300 raketi, onlarca postu məhv edildi, yüzlərlə hərbçisi yaralanaraq sıradan çıxarıldı.

**Bu dəfə də Ermənistana əyani dərs verildi!**

**Ermənistanın hərbi-siyasi rəhbərliyi və müdafiəçiləri gördülər ki, Azərbaycanın mövqeyi qəti, "dəmir yumruğ"u daim hazır vəziyyətdədir!**

*Heç kəs bizim səbrimizi sınağa çəkməsin!*

*Kimsə bizim nədənsə qorxub çəkinəcəyimizi, mövqeyimizin yumşalacağını güman etməsin!*

*Hər bir revanşizm cəhdi Ermənistanın öz başında çatlayacaq, ona bağışlanan silahları, zirehli texnikası məhv ediləcək, canlı qüvvəsi o dünyaya göndəriləcək!*

**Azərbaycan II Qarabağ müharibəsindən Zəfərlə çıxmış qalib dövlətdir!**

**Azərbaycan ərazi bütövlüyünü bərpa edərək torpaqlarını qorumağa qadir dövlətdir!**

**Azərbaycanın qəhrəman Ordusu, Vətən uğrunda hər an canından keçməyə hazır igid övladları, ən müasir silahları, İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanı vardır!**

Düşmən bütün bunları unutmasın!

Unutsa, dərhal "dəmir yumruq" yenidən yaddaşını təzələyəcəkdir!

**Bəxtiyar SADIQOV**

Azərbaycan.- 2022.- 15 sentyabr.- S.1.